*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 271-277*
https://doi.org/10.62837/2024.3.271

**ŞEYDAYEVA ZÜLFIYYƏ RÖVŞƏN**
*Bakı Slavyan Universiteti*
*Bakı şəhəri, S.Rüstəm küç.,33*
*E-mail: zylfiarovsen@gmail.com*

# MİLLİ MƏTBUAT AZƏRBAYCAN DİLİNİN TƏDRİSİNDƏ SÖZ VƏ FİKİR AZADLIĞININ İFADƏÇİSİ KİMİ

***Açar sözlər:*** *Azərbaycan mətbuatı, qəzet, inteqrasiya, dilin tədrisi*
***Key words***: *Azerbaijan press, newspaper, integration, language teaching*
***Ключевые слова:*** *Азербайджанская пресса, газета, интеграция, обучение языкам*

Qloballaşmağa doğru gedən cəmiyyət gün-gündən elmin, texnikanın inkişafının şahidi olur. Dövr, mühit, texnologiya hər an yeniləşməyə məruz qalır. Cəmiyyət zamanla baş verən bu yeniliklər haqqında bilikləri müxtəlif vasitələrlə əldə edirlər. Danılmaz faktdır ki, bütün dəyişikləri dəqiq, qərəzsiz cəmiyyətə çatdıran, vacib məsələləri vurğulayan mətbuatdır. Mətbuatın yaranma tarixinə keçdiyi inkişaf yoluna nəzər yetirsək görərik ki, ziyalı, savadlı insanlar bir bayraq, fikir, mətləb altında birləşib Azərbaycan mətbuatının yaranmasında mühüm addımlar atmışlar. Yüksək amallarla yaşamağa, bu amal uğrunda daim mübarizə aparmağa səsləyən Milli mətbuatımız hər dövr müxtəlif problemlərlə üzləşmişdir. Lakin hər zaman bu çətinliklərdın alnı açıq çıxmağı bacarmışdır.

Cəmiyyətdə baş verən hadisələri, ədəbi proseslərin gedişatını əlavələrsiz, birbaşa nəzərə çatdıran mətbuatın dünəni və bu gününü tədqiq edərkən digər elmlərlə qarşılıqlı əlaqəsini də vurğulamaq vacib məqamlardan biridir. Mətbuatdan danışarkən onun tariximizdə tutduğu mövqeyindən, ədəbiyyatımızıda açdığı ideya yolunda, dilimizin inkişafında misilsiz xidmətlərini də diqqətdə saxlamaq lazımdır. XIX əsrin sonları XX əsrin əvvəllərində mətbuata məlum olan bir çox qəzet və jurnallar nəşrlərinin parlaq dövrünü yaşayırdı. Bu dövr mətbuatı, həm sosial-siyasi, həm də mədəni məsələləri əhatə edən geniş bir siferada fəaliyyət göstərirdi. Təsadüfi deyil ki, “Kaspi”, “Molla Nəsrəddin”, “Şərqi-Rus” kimi mətbuat nümunələri Azərbaycan dilinin inkişafı, milli-mədəniyyətinin istiqamətləri, siyasi mübarizələri haqqında geniş oxucu kütləsinə malik yazılar dərc edirdilər.

Professor Şirməmməd Hüseynovun fikrinə əsas deyə bilərik ki, “”Kaspi” qəzetinin Azərbaycan mətbuatı tarixində xüsusi yeri var” [4, s 29] “Kaspi” qəzetinin gər səhifəsində Azərbaycanın inkişafına dair müxtəlif fikirlər, bu istiqamətdə aparılan xidmətləri əhatə edən mövzulara xüsusi yer verilmişdir.

Məhz bu baxımdan qürur hissi duyaraq demək mümkündür ki, “”Kaspi” təkcə jurnalistikamızın deyil, mətbuat, mədəniyyət, ictimai-siyasi fikir tariximizin də ayrılmaz tərkib hissəsidir” [4, s.29]

Bu dövrlər də Azərbaycanda milli ideologiya ruhlu mətbuat nümunələri ilə yanaşı boşevik ideyalarını özündə birləşdirən, cəmiyyətdə təbliğini tədqiq edən demokratik məzmunlu nəşirlərin də fəaliyyətə başlamışdı. Həmin nəşrlərdən olan "Hümmət", " Dəvət-Qoç", "Priziv", "Bakinski raboçi", "Təkamül", və "Qudoq" kimi mətbuat nümunələri Azərbaycan mətbuatında sosiaı-siyasi ideya cəryanlarının aşkar görünməsinə cığır açdı. Əlbəttə, bu prossesin gedişində 20-ci yüzilliyin əvvəllərində xüsusilə ilk onilliyində Rusiyada və Bakıda baş verən hadisələr olduqca mühüm rol oynayırdı. Ölkədə dərnəklərin, xeyriyyə xəmiyyətlərinin, siyasi partiyaların və onların ideyalarını təbliğ edən gizli və açıq şəkildə fəaliyyətə başlaması, kəskinləşməkdə olan iqtisadi böhranın gedişatı, inqilabi çıxışların getdikcə geniş əraziləri əhatə etməsi bilavasitə mətbuatımızın inkişafı üçün təkan rolunu oynayırdı. Çar Rusiyasının imzaladığı manifestdən sonra nəinki Bakıda hətta Azərbaycanın bütün ərazilərində mədəni-sosial, ictimai-siyasi həyatda uzun müddət hakimlik edən durğunluq tədricən sona çatdı.

İlk nəşilərindən başlayaraq bağlandığı günə qədər hər sayında Azərbaycan dilinin tədqiqatı və tədrisini təbliğ edən "Əkinçi" qəzetindən sonra Azərbaycan dilində mətbuat fəaliyyətinə qoyulan qadağanın ləğv olunması təkcə mətbuatın yox, ümumilikdə Azərbaycan tarixinin, mədəniyyətinin qələbəsi idi. H.Z. Tağıyevin uzun sürən danışıqlar aparmasının nəticəsi olaraq Peterburuqdan "Həyat" qəzetinin çapına icazə alması nəticəsində "Həyat"ın 1905-ci ildə nəşri, elə həmin ildə "İrşad" və "Füyuzat" kimi mətbuat orqanlarının yaranması milli ruhun dirçəlməsində, ədəbi-bədii mühitin canlanması, iki ədəbi məktəbin yaranması kimi əlamətdar hadisələrin baş verməsi üçün ilk addımlardan idi.

Mətbuatın təşəkkülü və inkişafı Azərbaycan dilinin inkişafında, sistemləşdirilməsində, yad dil ünsürlərindən təmizlənməsi prossesindəki mövqeyi günümüzədək aktuallığını itirməmişdir. Danılmaz faktdir ki, Azərbaycan dilinin inkişafı tarix boyunca bir çox dönüşüm yaşamış və bu müddət ərzində dil və mətbuat bir- biri ilə qarşılıqlı əlaqədə olmuşdur. Görkəmli alimlərdən biri olan Solmaz Rüstəmova mətbuatla bağlı tədqiqatlar apararkən maraqlı məqamlara toxunaraq qeyd edir ki, "Biz mətbuatı öyrənməklə həm də özümüzün kimliyini formalaşdırır, yaşanan tarixin həqiqətlərinə aydınlıq gətiririk" [5, s.144]. XIX yüzilliyin sonlarından etibarən, Azərbaycan mətbuatı dilin qorunması, inkişafı və xalq arasında saflığını qoruyaraq yayılmasında kritik bir əlaqə vasitəsi olaraq ön plana çıxmışdır. Azərbaycan mətbuatının ilk illərində Azərbaycan dilinin standartlaşdırılması, yad ünsürlərdən təmizlənməsi ən önəmli məsələlərdən biri idi. Fərqli dialektlərin, varvarizmlərin yazılı və şifahi dildə bir çox çətinliklərin yaranmasına səbəb olurdu. Milli mətbuat bu problemin həll olunmasını qarşısına məqsəd qoyaraq uzun yola çıxdı. İlk addım ana dilli mətbuatın yaranması idi ki, Həsən bəy Zərdabi mətbuatın ilk qaranquşu olan "Əkinçi" qəzetinin nəşri ilə bu addımı ataraq akedemik cığır aça bildi. 1875-1877-ci illər ərzində cəmi 56 sayı buraxılsa da özündə yüksək, qızıla bərabər amalları, ürəyi azadlıq və təhsillə döyünən alimləri birləşdirən "Əkinçi" hər sayında ana dilinə, vətənə, əməyə hörmət və sevgini aşılmağı öz devizinə çevirmişdi. "Əkinçi"nin təməlini qoyduğu bu məqsəd daha sonralar "Şərqi-Rus", "Molla

Nəsrəddin" kimi mətbuat nümunələrində daha qabarıq şəkildə inkişaf etməyə başladı. Ana dilli mətbuatın ilk qaranquşu olan "Əkinçi" qəzetinin təsir dairəsi hər zaman özünü açıq-aşkar göstərir.

Heç şübhəsiz ki, milli mətbuat ortaq bir yazı dilinin yaranmasında önəmli orqan olaraq çıxış edirdi. Qəzet və jurnallar, dilçilər, yazarlar və alimlər arasında dil məsələlərinin müzakirəsində əsas mənbə rolunu oynayırdı. Bu müzakirələr zamanı dil qaydalarının tənzimlənməsi, standart Azərbaycan dilinin yaranması üçün önəmli adımlar atıldı. Dilin yayılması və tədrisində milli mətbuat nümunələrinin hər biri müxtəlif cəhətlərdə özünü göstərmişdir. Qəzet və jurnallar xalqın oxuma-yazma biliklərinin artırılmasında, tədris materiallarının təkminləşdirilməsində və dil qaydalarının möhkəmlənməsində kritik rola sahib olub, xalqın təsərrüfat, sağlıq, ölkənin ictimai əlaqələri haqqında müxtəlif mövzularda məlumatlanmasında da xidmətlər göstərmişdir.

Xalq yaşadığı hər zaman dilimində fərqli sahələr üzrə yaradıcılıqla məşğul olub, öz sahələri üzrə inkişaf edirlər. Zamanda, cəmiyyətdə gedən hər bir prosses birbaşa dilə, onun inkişafına da təsir göstərir. İctimai-siyasi hadisələr, sosial-iqtisadi əlaqələr, milli-mədəni dəyişikliklər dilə yeni sözlərin, xüsusilə terminlərin daxil olmasına böyük imkanlar açır. Məhz bunun nəticəsidir ki, Azərbaycan dili günü-gündən zənginləşərək varlı dilə çevrilmişdir. Söz ustadları, yazarlar, siyasi xadimlər bu dilin zənginliyindən, onun bəlli olmayan sirlərindən məharətlə istifadə edərək qələm təcrübələrində, nitqlərində hər zaman xatırlanacaq ifadələr yaratmışdılar. Məhz bu idealar "Əkinçi" qəzetinin sütünları rolunu oynayırdı.Belə bir məqamda M.F.Axundzadənin təbirincə desək: "Mətbuatın ideyallığı və müasirliyi ən ümdə şərtlərdən biridir" [1, s.160].

Söz və fikir azadlığının yaranması və gücləndirilməsində milli mətbuatın rolu cəmiyyətin bütün sahələrində, xüsusilə də təhsildə mühüm əhəmiyyət kəsb edir. Azərbaycan dilinin tədrisi və milli mətbuatın əhəmiyyət dərəcəsi müstəqil ölkələrin mədəniyyət inkişafında əsas rol oynayır. Ana dilli milli mətbuatın dünəni və bu günü Azərbaycan tarixi və mədəniyyəti ilə əhatə olunmuş bir dilin vasitəsilə cəmiyyətə ötürülməsi vətəndşlıq tarixi üçün ən vacib məqamlardan biridir. Azərbaycanda Azərbaycan dilinin tədrisi təkcə akademik fənn deyil, həm də milli kimliyin, mədəniyyətin və irsin qorunub saxlanılmasında mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın ana dilli millim mətbuatı yarandığı gündən etibarən bu günədək dil irsi ilə söz və fikir azadlığı prinsipləri arasında körpü rolunu oynayır. Zəngin ədəbi ənənəsi və tarixi əhəmiyyəti ilə Azərbaycan dili milli şüurun mərkəzində dayanır. Hər kəsə bəllidir ki, mətbuat, müxtəlif formalarda- jurnallar, qəzetlərdə bu mədəni sərvətin daşıyıcısı və qoruyucusu kimi çıxış etməklə bərabər, qloballaşma problemləri qarşısında onun təkamülünü müdafiə edir. Bu müdafiə təkcə dilin qorunub saxlanılması ilə məhdudlaşmır, eyni zamanda Azərbaycan dilçilik təhsili çərçivəsində söz və fikir azadlığının təşviqinə də şamil edilir. Söz və fikir azadlığı insanın haqqı olduğu kimi "azad yaşamaq da insanın təbii haqqı, təbii hüququdur"[2, s.58].

Milli mətbuat inkişaf pilləsinin hər sahəsin`də Azərbaycan dilinin tədrisində danılmaz təsirə malik olmuşdur. Dil öyrənmə sahəsində qəzet və jurnallar kimi ənənəvi çap mediası unikal və əvəzolunmaz mövqeyə malikdir. Rəqəmsal əsr çoxlu sayda elektron resursların yaranmasına səbəb olsa da, çap materiallarının linqvistik təhsilə verdiyi töhfə xüsusilə Azərbaycan dilinin tədrisi və öyrənilməsi kontekstində əhəmiyyətli olaraq qalır. Qəzet və jurnalların Azərbaycan dilinin öyrənilməsinə daxil edilməsinin birbaşa faydalarından biri söz ehtiyatının və ümumi dil biliyinin artırılmasıdır. Bu çap mediaları zəngin kontekstlərdə təqdim olunan yeni sözlər, deyimlər və ifadələrin xəzinəsidir. Siyasət, iqtisadiyyat və elmdən tutmuş mədəniyyət, idman və əyləncəyə qədər müxtəlif məzmun öyrənənləri geniş leksik diapazonla tanış edir və linqvistik genişlənmə üçün yetişmiş mühit yaradır. Qrammatika hər hansı bir dilin əsasını təşkil edir və onun nüanslarını başa düşmək öyrənənlər üçün çox vacibdir. Qəzet və jurnallarda Azərbaycan dilinin qrammatikasına dair real həyat nümunələri verilir. Məqalələr, müsahibələr və rəylər vasitəsilə öyrənənlər müxtəlif kontekstlərdə tətbiq olunan qrammatik strukturları və qaydaları görə bilərlər. Bu praktiki məsələlər mürəkkəb qrammatik anlayışları aydınlaşdırmağa kömək edir, öyrənmə prosesini daha məqsədəuyğun və cəlbedici edir.

Dil sadəcə ünsiyyət vasitəsi deyil; onun qaynaqlandığı mədəniyyətin və cəmiyyətin əksidir. Qəzet və jurnallar Azərbaycanın həyat tərzinə açılan pəncərələrdir, oxuculara ölkənin adət-ənənələri, dəyərləri və cari hadisələrə nəzər salmaq imkanı verir. Dil öyrənənlər üçün bu mədəni əlaqənin mövcüdluğu əvəzolunmazdır. Bu, təkcə dilin kontekstual istifadəsini anlamağa kömək etmir, həm də öyrənənlərin Azərbaycan mədəniyyətinə olan qiymətlərini zənginləşdirir. Yazılı məzmunla müntəzəm məşğul olmaq oxumağın səlisliyini yaxşılaşdırdığı məlumdur. Azərbaycan dilini öyrənənlər üçün qəzet və jurnallardakı mətnlər arasında naviqasiya onların oxu bacarıqlarını çətinləşdirir, onları sürətini, anlayışını və kontekstdən məna çıxarmaq qabiliyyətini artırmağa sövq edir. Bu təcrübə akademik və peşəkar uğur üçün çox vacibdir, burada mükəmməl oxunu başa düşmək əsas səriştədir.

Qəzet və jurnalların dövri xarakter daşıması yeni materialların davamlı axınını təmin etdiyini nəzərə alaraq qeyd etmək lazımdır ki, “Qəzetlərin bu günkü millətlərin təşəkkülündə oynadıqları rolu əvəzsizdir” [2, s22] . Bu müntəzəmlik öyrənənləri oxumağı gündəlik və ya həftəlik iş rejiminə daxil etməyə həvəsləndirir, ardıcıl dil təcrübəsi vərdişini aşılayır. Dillə adi məşğulluq müvəffəqiyyətli öyrənmənin təməl daşıdır, yadda saxlamağa və dil biliyinin tədricən artırılmasına kömək edir. Qəzet və jurnallardakı məqalələr tez-tez arqumentlər təqdim edir, tənqidlər təklif edir və geniş spektrli məsələlərə dair müxtəlif perspektivləri araşdırır. Bu məzmunla məşğul olmaq öyrənənləri tənqidi düşünməyə və təqdim olunan fikirləri Azərbaycan dilində təhlil etməyə dəvət edir. Bu proses təkcə tənqidi düşünmə bacarıqlarını gücləndirmir, həm də öyrənənin dilin incəliklərini və mürəkkəbliklərini dərk etməsini dərinləşdirir. Qabaqcıl öyrənənlər üçün qəzet və jurnallarda tapılan strukturlaşdırılmış, cilalanmış nəsr yazı üçün əla model ola bilər. Peşəkar yazının kompozisiyasını, üslubunu və tonunu öyrənməklə tələbələr öz yazı

bacarıqlarını təkmilləşdirə, Azərbaycan dilində daha effektiv və inandırıcı ünsiyyət qurmağı öyrənə bilərlər.

Yekun olaraq qeyd edək ki, qəzet və jurnallar Azərbaycan dilinin tədrisində və öyrənilməsində əvəzsiz vəsaitdir. Onlar dilin mənimsənilməsi, lüğətin genişləndirilməsi, qrammatik anlayış, mədəni anlayışlar və tənqidi düşünmə bacarıqlarını birləşdirən dinamik, zəngin və müxtəlif kontekst təklif edir. Şagirdlər müxtəlif məzmunda naviqasiya etdikcə, onlar nəinki linqvistik səriştələrini artırırlar, həm də Azərbaycan mədəniyyəti ilə daha dərin əlaqə qururlar. Mətbuat və dil tədrisi arasındakı bu qarşılıqlı əlaqə çoxşaxəli olmaqla bərabər uzun inkişaf yoluna sahibdir. Ən vacib əlaqələrdən biri olaraq vurğulamaq lazımdır ki, Azərbaycanda qəzet və jurnallarda tez-tez dil bacarıqlarının artırılmasına, tənqidi, məntiqi təfəkkürün inkişafına və fikirlərin daha aydın, ifadəli şəkildə ifadə olunmasına kömək edən məqalələr, rəy yazıları və maarifləndirici məzmunlu materiallar dərc olunur. Bu cür məzmun təkcə informativ deyil, həm də dil öyrənmək üçün praktiki material rolunu oynayır və tələbələrə ana dilinin obyektivindən müasir problemlərlə məşğul olmağa imkan verir. Üstəlik, milli mətbuat dil siyasəti, təhsil islahatları, Azərbaycan dilinin qlobal kontekstdəki rolu ilə bağlı müzakirə meydanıdır. Mətbuat bu mövzularda ictimai diskussiyaya şərait yaratmaqla təhsil işçilərinin, dilçilərin, tələbələrin və geniş ictimaiyyətin səsinin eşidilməsini təmin edir. Bu açıq dialoq demokratik proses üçün vacibdir və təhsil kontekstində söz və fikir azadlığının vacibliyini vurğulayır.

Milli mətbuatın Azərbaycan dili kurikulumuna inteqrasiyası həm də tədris metodikasının zənginləşdirilməsi üsulu kimi dəyərləndirilə bilər. Məsələn, məqalələrin və redaksiyaların dil dərslərinə daxil edilməsi tələbələri müxtəlif yazı üslubları və perspektivləri ilə tanış edir, onların anlama və tənqidi təhlil bacarıqlarını artırır. Bundan əlavə, mətbuat tələbələri cari hadisələr və mədəni müzakirələrlə əlaqələndirir, dil öyrənməni daha aktual və cəlbedici edir. Bununla belə, milli mətbuatla dil tədrisi arasında əlaqə problemsiz deyil. Medianın qərəzliliyi, senzura və jurnalist məzmununun keyfiyyəti kimi məsələlər mətbuatın təhsil vasitəsi kimi effektivliyinə təsir göstərə bilər. Buna görə də, məzmunun təkcə linqvistik cəhətdən zənginləşdirilməsini deyil, həm də dəqiqlik, dürüstlük və ifadə azadlığı prinsiplərini müdafiə etməsini təmin etmək üçün təhsil işçiləri, jurnalistlər və siyasətçilər üçün əməkdaşlıq çox vacibdir. Müasir dövrün başlaması ilə birlikdə Azərbaycan mətbuatının dil üzərindəki təsiri daha da şaxələnmişdir. Belə ki, qəzetlər, aktiv xəbər porlatlları, sosial medialar Azərbaycan dilinin istifadı imkanlarınlı və yayılmasını təmin edən yeni mənbələr olaraq ortaya çıxmışdır. Məhz sadalanan bütün keyfiyyətlərini nəzərə alaraq əminliklə qeyd etmək olar ki, “Azərbaycan publisistikası XX əsrin əvvələrindəki səviyyəsilə heyrət doğurdu” [3, s.7].

Yekun olaraq qeyd edək ki, milli mətbuat Azərbaycan dilinin tədrisində əvəzolunmaz müttəfiqdir, təkcə dil irsinin qorunub saxlanması və təbliği ilə bağlı deyil, həm də söz və fikir azadlığının əsas hüquqlarını müdafiə edir. Azərbaycan 21-ci əsrin inkişafına yol tapdıqca, milli mətbuat və dil təhsili arasındakı əlaqə, şübhəsiz ki, məlumatlı, ifadəli və azad danışan cəmiyyətin formalaşmasında mühüm rol oynayacaqdır.

## Ədəbiyyat

1. Ağayev, İ. Ədəbiyyat, mətbuat və publisistika problemləri (seçilmiş məqalələr) / İ. Ağayev. – Bakı: Elm, - 2008. – 504 s.
2. Axundov, M.F. Əsərləri: [3 cilddə] / M.F.Axundov.- Bakı: Maarif, - c. 3 - 1962. – 180 s.
3. Azərbaycan publisistikası antologiyası. – Bakı: Şərq-Qərb, - 2007. – 688 s.
4. Hüseynov Ş. Mətbu irsimizdən səhifələr / Ş. Hüseynov. – Bakı: Çənlibel, - 2007. – 484 s.
5. Rüstəmova S. Azərbaycan dövri mətbuatı / S. Rüstəmova. – Bakı: Azərnəşr, - 1993. – 258 s.

## Milli mətbuat Azərbaycan dilinin tədrisində söz və fikir azadlığının ifadəçisi kimi.

### Xülasə

**Şeydayeva.Z**

Milli mətbuatın yaranmasında əhəmiyyətli bir rol oynayan mənbələr, ölkənin tarixi, mədəniyyəti, dili, adətləri və dövlət siyasəti ilə bağlı məlumatların cəmiyyətə ötürülməsinin əsas alətləridir. Azərbaycan dilinin tədrisi və milli mətbuatın mənbələri, təhsil müəssisələri, kitabxanalar, muzeylər və ictimaiyyət tərəfindən yaradılan ədəbi əsərlər, jurnallar və qəzetlər kimi mənbələrdən ibarətdir.

Tədris prosesində milli mətbuatın əhəmiyyətini anlamaq üçün ən yaxşı mənbələrdən biri ədəbiyyatdır. Azərbaycan ədəbiyyatının böyük əsərləri, dilin zəngin strukturunu, qrammatikasını və leksikasını tədqiq etməyə imkan verir. Azərbaycan mətbuatının bir çox sahələrə, xüsusən də Azərbaycan dilinin tədrisinə təsirini danmaq olmaz. Bu qarşılıqlı əlaqə dilin daxili və xarici imkanları hesabına saflaşdırılmasına, zənginləşməsinə şərait yaradır. Ana dilində mətbuatın yaradılması Azərbaycan dilinin müstəqilliyini bilavasitə təsdiq edən əsas amillərdən biridir.

## THE NATIONAL PRESS AS A CONDUCTOR OF FREEDOM OF SPEECH AND THOUGHT IN TEACHING THE AZERBAIJANI LANGUAGE

### SUMMARY

**SHEYDAYEVA.Z**

The sources that play an important role in the formation of the national press are the main tools for transmitting information about the country's history, culture, language, customs and state policy to the society. The teaching of the Azerbaijani language and the sources of the national press consist of sources such as educational institutions, libraries, museums and literary works created by the public, magazines and newspapers. One of the best sources for understanding the importance of the

national press in the educational process is literature. Great works of Azerbaijani literature allow to study the rich structure, grammar and lexicon of the language. There is no denying the influence of the Azerbaijani press on many fields, especially on the teaching of the Azerbaijani language. This interaction creates conditions for refining the language and enriching it due to its internal and external capabilities. The creation of the native language press is one of the main factors directly confirming the independence of the Azerbaijani language.

## НАЦИОНАЛЬНАЯ ПРЕССА КАК ПРОВОДНИК СВОБОДЫ СЛОВА И МЫСЛИ В ПРЕПОДАВАНИИ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

### РЕЗЮМЕ

**ШЕЙДАЕВА.З**

Источники, играющие важную роль в формировании национальной прессы, являются основными инструментами передачи обществу информации об истории, культуре, языке, обычаях и государственной политике страны. Преподавание азербайджанского языка и источники национальной прессы состоят из таких источников, как учебные заведения, библиотеки, музеи и литературные произведения, созданные общественностью, журналы и газеты. Одним из лучших источников понимания значения национальной прессы в образовательном процессе является литература. Великие произведения азербайджанской литературы позволяют изучить богатую структуру, грамматику и лексику языка. Нельзя отрицать влияние азербайджанской прессы во многих областях, особенно в преподавании азербайджанского языка. Такое взаимодействие создает условия для совершенствования языка и обогащения его за счет его внутренних и внешних возможностей. Создание родноязычной прессы является одним из главных факторов, непосредственно подтверждающих независимость азербайджанского языка.

**Redaksiyaya daxil olma tarixi: 15.03.2024**
**Çapa qəbul olunma tarixi: 30.03.2024**
***Rəyçi: f.ü.f.d Ə.Rəna***
**tərəfindən çapa tövsiyə olunmuşdur**